Ölkəmizi tanıyaq

Gənclərin dünyagörüşünün formalaşmasında mühüm rol oynayan layihə

Gəncə

Gəncə-Şəmkir-Göygöl marşrutu üzrə tur-aksiyada iştirak edən Sumqayıt şəhərindən, paytaxtın Xəzər, Pirallahı, Qaradağ, eləcə də Masallı, Lənkəran, Astara, Lerik və Yardımlı rayonlarından olan IX-XI sinif şagirdləri noyabrın 12-də Gəncənin tarixi abidələri, müqəddəs məkanları, mədəniyyət mərkəzləri, eləcə də son illərdə inşa edilən turizm və istirahət məkanları ilə tanış olublar.

Maarifləndirici tur-aksiya iştirakçılarının üz tutduqları ilk məkan böyük mütəfəkkir, dahi Azərbaycan şairi Nizami Gəncəvinin türbə kompleksi olub.

Komplekslə tanışlığı davam etdirən şagirdlər türbə ətrafında yaradılan şəraitlə tanış olub, Nizami Gəncəvinin poemalarının motivləri əsasında işlənən heykəllərə baxıb, şəkillər çəkdiriblər.

Sonra tur-aksiya iştirakçıları Nizami Gəncəvi Muzeyinə gəliblər. Bildirilib ki, muzeyin binasının təməli 2013-cü ildə qoyulub. Bundan bir il sonra Prezident İlham Əliyevin Gəncəyə növbəti səfəri zamanı muzey istifadəyə verilib.

Burada məktəblilər vaxtilə dahi şairin əsərlərinə həsr olunan və hazırda dünyanın Metropoliten, Viktoriya və Albert, Drezden, Vatikan kimi muzeylərin ən qiymətli eksponatları sırasında yer alan, "Xəmsə"nin motivləri əsasında işlənən miniatürlərin surətləri ilə tanış olublar.

Müsəlman dünyasının müqəddəs ziyarətgahlarından olan "İmamzadə" dini kompleksi ilə tanışlıq da şagirdlər üçün maraqlı keçib.

Bildirilib ki, "İmamzadə" kompleksinin ətrafında böyük kompleks yaradılıb. Belə ki, yenidənqurma işlərindən sonra Şahzadə İbrahimin qəbri üzərində tikilən tarixi türbələr saxlanılmaqla üzəri günbəzlə tamamlanan möhtəşəm türbə, ətrafında isə yaraşıqlı minarələr inşa edilib. Ziyarətgahda möminlərin rahat ibadəti üçün Hüseyniyyə və Zeynəbiyyə məscidləri, dəstəmazxana, mehmanxana, dini muzey tikilib. İnsanların mənəvi saflıq, doğruluq və halallıq məkanı olan "İmamzadə" kompleksi məktəblilərdə böyük maraq oyadıb.

Daha sonra tur-aksiya iştirakçıları Heydər Əliyev adına meydanda ümummilli liderin abidəsini ziyarət edib, xatirəsini ehtiramla anıblar.

Məktəblilər 1606-cı ilin yadigarları olan Şah Abbas Məscidi, Çökək Hamam, Uğurlu xan Karvansarayı ilə tanış olub, Gəncə xanlığının sonuncu hökmdarı Cavad xanın türbəsini ziyarət ediblər.

Açıq səma altında muzeyi xatırladan Cavad xan küçəsindəki gəzinti də məktəblilərə xoş təsir bağışlayıb. Şagirdlər küçə boyu irəlilədikcə onlara Gəncənin zəngin və çoxəsrlik memarlığının ən gözəl örnəklərinin qorunub saxlandığı, vaxtilə şəhərin mülkədarları və varlı tacirləri tərəfindən inşa edilən imarətlər, tarixi tikililər haqqında ətraflı məlumat verilib.

Tur-aksiya iştirakçıları daha sonra Məhsəti Gəncəvi adına mədəniyyət mərkəzinə gəliblər. Şagirdlər Gəncə çayı ətrafında yeni istifadəyə verilmiş Bulvar Kompleksində də olublar. Onlar Bayraq meydanında 120 metr hündürlükdə dalğalanan Azərbaycan bayrağını seyr edib, ölkənin dövlətçilik tarixindən bəhs edən guşələrə baxıblar. Sonda isə tur-aksiya iştirakçıları Prezident İlham Əliyev tərəfindən yenicə istifadəyə verilmiş Mirzə Şəfi Muzeyinə və şairin adını daşıyan parka gəliblər.

Qəbələ

"Ölkəmizi tanıyaq" devizi ilə keçirilən maarifləndirici tur-aksiya çərçivəsində Şəki-Zaqatala-Qəbələ marşrutu üzrə ekskursiyaya çıxan Biləsuvar, Kürdəmir, Hacıqabul, Zərdab və Ucar rayon məktəblərinin IX-XI sinif şagirdləri noyabrın 12-də Qəbələnin sosial-iqtisadi inkişafı istiqamətində görülən işlər, rayonun müasir həyatı, tarixi, mədəni irsi, adət-ənənələri, özünəməxsus xüsusiyyətləri, son illərdə inşa edilən sosial obyektlər, əyləncə və istirahət mərkəzləri, tarixi-mədəniyyət abidələri, coğrafiyası, turizm obyektləri və muzeyləri ilə tanış olublar.

Əvvəlcə rayondakı Heydər Əliyev Mərkəzini ziyarət edən şagirdlər ulu öndərin həyatını və siyasi fəaliyyətini əks etdirən fotoşəkillərə və sənədlərə baxıblar. Şagirdlər ekskursiya zamanı ümummilli lider Heydər Əliyevin qurub-yaratdığı müstəqil Azərbaycan və ölkəmizin dilbər guşəsi olan Qəbələ ilə yaxından tanış olublar.

Ümumilikdə 200 nəfər məktəblinin Qəbələ ilə tanışlığının növbəti ünvanı "Tufandağ" Qış-Yay Turizm İstirahət Kompleksi olub. Bölgənin ən çox turist qəbul edən bu obyekti ilə yaxından tanışlıq zamanı şagirdlərə məlumat verilib ki, Azərbaycanın iqtisadiyyatında qeyri-neft sektorunun, xüsusilə turizm sahəsinin çox böyük payı var. İndi Qəbələdə bu sahənin inkişafına xüsusi diqqət yetirilir. Bu inkişafın konturları Strateji Yol Xəritəsində öz əksini tapıb.

Sonra şagirdlər kanat yolu ilə uca dağların zirvəsinə qalxaraq oradan Qəbələ şəhərini və ətrafdakı çayları, meşələri, gözəl mənzərəni seyr edib, xatirə şəkli çəkdiriblər.

Heydər Əliyev adına Konqres Mərkəzini ziyarət edən şagirdlər həmçinin Rayon Tarix-Diyarşünaslıq Muzeyində 900 il Qafqaz Albaniyasının paytaxtı olmuş Qəbələnin tarixi, mədəniyyəti və etnoqrafiyası haqqında məlumat əldə ediblər.

Nic qəsəbəsinə səfər zamanı şagirdlər "Cotari" albanudi kilsəsində olublar. Məktəblilər "Beltmann" piano fabrikində və Qəbələ konserv zavodunda istehsal prosesi ilə tanış olublar. Şagirdlər həmçinin Çuxur Qəbələ Tarix və Mədəniyyət Qoruğuna səfər edib, qədim Qəbələ şəhərinin xarabalıqları və ərazidə aparılan arxeoloji qazıntıların nəticələri, eləcə də Qəbələ Arxeoloji Mərkəzində nümayiş olunan maddi-mədəniyyət nümunələri ilə tanış olublar.

Şagirdlər asudə vaxtlarında Qəbələnin müasir hotelləri, "Qəbələnd" istirahət və əyləncə mərkəzi, bölgənin füsunkar təbiəti ilə tanış olublar, bu rayona səfərdən məmnun qaldıqlarını bildiriblər.

Zaqatala

Tur-aksiya çərçivəsində Qəbələ-Şəki-Zaqatala marşrutu üzrə ekskursiyaya çıxan Kəlbəcər, Laçın, Xocalı, Xocavənd, Saatlı və Sabirabad rayonlarının məktəbliləri noyabrın 12-də Zaqatala rayonuna gəliblər.

Tur-aksiya iştirakçıları Zaqatala şəhərindəki Heydər Əliyev Mərkəzində rayonun rəhbər işçiləri tərəfindən mehribanlıqla qarşılanıblar.

Bildirilib ki, son illər Zaqatalada yeni fındıq bağlarının salınmasına böyük diqqət göstərilir. Fındıqçılıq kənd əhalisinin əsas məşğuliyyət sahələrindən biri hesab olunur. Son illər fındıq bağlarının ümumi sahəsi artırılaraq 17 min hektara çatdırılıb. Ənənəvi sahələrdən olan gülçlülyün inkişaf etdirilməsi üçün rayon ərazisində 107 hektar sahədə yeni gül plantasiyası salınıb. Hazırda həmin ərazidə qızılgül yağı istehsalı müəssisəsinin tikintisi davam etdirilir.

Sonra məktəblilər Heydər Əliyev Mərkəzi ilə tanış olublar. Məlumat verilib ki, mərkəzdə müxtəlif təyinatlı bölmələr fəaliyyət göstərir. Binanın birinci mərtəbəsindəki ekspozisiya zalında ulu öndərin zəngin həyat yolu və çoxşaxəli fəaliyyətinin bütün dövrləri barədə ətraflı məlumat almaq mümkündür. Binada, həmçinin akt və konfrans zalları, elektron kitabxana, kinozal, müxtəlif dərnək otaqları, fotostudiya, poliqrafiya emalatxanası və digər otaqlar yerləşir. Mərkəzdə fəaliyyət göstərən rəqs, rəsm, gitara, gənc fotoqraf, dekorativ tikmə, xalçaçılıq və toxuculuq dərnəklərində hər gün xeyli sayda yeniyetmə və gənc məşğul olur.

Məktəblilər dərnək otaqlarında yaradılan şəraitlə tanış olublar.

Tur-aksiya iştirakçıları ümummilli lider Heydər Əliyevin adını daşıyan mədəniyyət və istirahət parkını ziyarət edib, dahi şəxsiyyətin abidəsi önündə xatirə şəkilləri çəkdiriblər.

Rayon Tarix-Diyarşünaslıq Muzeyi ilə tanışlıq zamanı diqqətə çatdırılıb ki, 1967-ci ildə yaradılan muzeydə 16 minə yaxın eksponat nümayiş etdirilir.

Zaqatalaya səfər çərçivəsində məktəblilər fındıq emalı zavodunda da olub, istehsal prosesi ilə maraqlanıblar. Məlumat verilib ki, zavodda istehsal olunan fındıq ləpəsi əsasən Rusiya, Almaniya, İtaliya və digər Avropa ölkələrinə ixrac olunur. Məktəblilərin diqqətinə çatdırılıb ki, Azərbaycanda fındıq istehsalının böyük bir hissəsi Zaqatala rayonunun payına düşür.

Tur-aksiya iştirakçıları "Qızılgüllər diyarı" Zaqataladan zəngin təəssüratlarla ayrılıblar.

Lənkəran

Tur-aksiyanın iştirakçısı olan Gəncə şəhərinin, Ağstafa, Qazax, Bakının Nəsimi və Yasamal rayonlarının məktəbliləri noyabrın 12-də Lənkəran rayonuna səyahət ediblər.

Tur-aksiyanın iştirakçıları Lənkəran şəhərindəki Heydər Əliyev Xatirə Parkında ümummilli liderin abidəsi önünə gül dəstələri düzərək xatirəsini ehtiramla yad edib, ulu öndərin adını daşıyan mərkəzdə böyük rəhbərin zəngin və mənalı ömür yolunu əks etdirən eksponatlar və fotoşəkillərlə tanış olublar.

Sonra tur-aksiyanın iştirakçıları Lənkərandakı "Xanbulan" istirahət mərkəzinə və Hirkan Milli Parkına səyahət ediblər.

Şimal bölgəsinə ekskursiyada Bərdə, Ağdam, Tərtər, Goranboy, Ağcabədi, Beyləqan, Cəbrayıl, Qubadlı rayonlarını və Naftalan şəhərini təmsil edən ümumtəhsil məktəblərinin 400-ə yaxın yuxarı sinif şagirdi iştirak edir.

Ağdam, Ağcabədi, Beyləqan, Cəbrayıl, Qubadlı rayonlarından olan məktəblilərin qədim Qubaya ekskursiyası zəngin memarlıq üslubuna malik Cümə məscidi ilə tanışlıqla başlayıb. Məktəblilərin diqqətinə çatdırılıb ki, məscid 1802-ci ildə tikilib. Dini məbədin tikintisi müəyyən fasilələrlə 10 ilə başa çatdırılıb. Bu məscid təkcə Qubada deyil, bütün şimal-şərqi Azərbaycanda ən qədim dini mərkəzlərdən biridir.

Quba Soyqırımı Memorial Kompleksi və ərazidəki kütləvi məzarlığı ziyarət zamanı tur-aksiya iştirakçıları ermənilərin törətdikləri soyqırımı haqqında ətraflı məlumatlandırılıblar. Diqqətə çatdırılıb ki, Heydər Əliyev Fondunun dəstəyi ilə yaradılan Quba Soyqırımı Memorial Kompleksi 2013-cü il sentyabrın 18-də açılıb. Kompleksdə XX əsrin əvvəllərində Quba şəhərinin müxtəlif ərazilərinin görüntüləri, o zaman burada aparılan tikinti-quruculuq işləri, əhalinin həyat tərzi haqqında fotolar var. Burada quraşdırılmış sensor ekranlı monitordakı xüsusi xəritədə ermənilərin ötən əsrdə xalqımıza qarşı respublikamızın müxtəlif bölgələrində həyata keçirdikləri soyqırımı aktları barədə bir neçə dildə məlumat əldə etmək mümkündür.

Tur-aksiya iştirakçıları şəhərdə fəaliyyət göstərən "Qədim Quba" xalçaçılıq müəssisəsində xalça toxunması prosesini izləyiblər. Burada onlara Quba xalçaçılıq məktəbi haqqında ətraflı məlumat verilib.

Günün ikinci yarısında məktəblilər Quba rayonu ərazisində, Xınalıq yolu üzərində yerləşən dağ şələləsinə ekskursiya ediblər.

Tur-aksiya iştirakçıları, həmçinin "Rixos Quba Azerbaijan" hotel kompleksi və burada yerləşən Azərbaycan Milli Qolf Klubu ilə də yaxından tanış olublar.

Bərdə, Tərtər, Goranboy rayonlarını və Naftalan şəhərini təmsil edən məktəblərin şagirdlərindən ibarət qruplar isə noyabrın 12-də Azərbaycanın şimal qapısı sayılan Qusar rayonuna gəliblər.

Ümumtəhsil məktəblərinin yuxarı sinif şagirdləri Qusar şəhərinin girişindəki Bayraq Meydanında qarşılanıblar. Rayon icra hakimiyyətinin, mədəniyyət və turizm, təhsil şöbələrinin nümayəndələri şagirdlərə Qusar rayonu haqqında ətraflı məlumat veriblər.

"Şahdağ" Turizm Mərkəzi ilə tanışlıq zamanı şagirdlərin diqqətinə çatdırılıb ki, turizm mərkəzi dünyadakı bu tipli komplekslərdən nadirliyi və universallığı ilə fərqlənir. Günün ikinci yarısında məktəblilər rayonun Həzrə kəndində "Şeyx Cüneyd" türbəsini ziyarət edib, şəhərdəki Heydər Əliyev Mərkəzində ulu öndərin zəngin irsini və fəaliyyətini əks etdirən fotoşəkillərə baxıblar.

Daha sonra şagirdlər Qusar Tarix-Diyarşünaslıq Muzeyi, Olimpiya İdman Kompleksi və rəsm qalereyası ilə yaxından tanış olublar.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin təklifi əsasında Hirkan Milli Parkı UNESCO-nun Ümumdünya Mədəni və Təbii İrs Siyahısına daxil edilməsi üçün qeydiyyata alınıb.

Bildirilib ki, Hirkan Milli Parkı çoxlu sayda endemik relikt növlərin mövcud olduğu təbiət muzeyidir. Bu muzeyin yaşı min illərlə ölçülür.

Məktəblilər Xanbulan kəndində salınmış sitrus meyvə bağları və çay plantasiyaları ilə də yaxından tanış olublar.

Tur-aksiyanın iştirakçılarına cənub bölgəsində çayçılığın inkişaf tarixi, müəssisədə aparılan elmi-tədqiqat işləri, təcrübələr və onların nəticələri barədə ətraflı məlumat verilib.

Lənkəran şəhərindəki "Qoşa Qala qapıları", "Mayak" binası, "Dairəvi Qala", Bayraq Meydanı, Tarix-Diyarşünaslıq Muzeyi, Gənclər Mərkəzi ilə tanışlıq məktəblilərin böyük marağına səbəb olub.

Daha sonra tur-aksiyanın iştirakçıları iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları general-mayoru Həzi Aslanovun möhtəşəm abidəsini ziyarət edib, qəhrəmanın Lənkəran şəhərindəki ev-muzeyində nümayiş etdirilən eksponatlarla tanış olublar. Burada şagirdlərə igid qəhrəmanın İkinci Dünya müharibəsində keçdiyi döyüş yolu barədə ətraflı məlumat verilib.

Axşam saatlarında məktəblilər "Şah sarayı"nda onlar üçün təşkil edilmiş müxtəlif əyləncəli proqramlarda iştirak ediblər.

Quba

Səkkiz rayon və bir şəhəri təmsil edən məktəblilər noyabrın 12-də Quba və Qusar rayonlarının görməli yerləri ilə tanış olublar.

Şəki

Qəbələ-Şəki-Zaqatala marşrutu üzrə hərəkət edən 6 rayonun - Saatlı, Sabirabad, həmçinin məcburi köçkün rayonlarından olan Kəlbəcər, Laçın, Xocalı və Xocavənd məktəblilərindən ibarət qruplar ekskursiyanın ikinci günü, noyabrın 12-də səhər saatlarında qədim Şəkiyə gəliblər.

Tur-aksiyanın iştirakçıları Heydər Əliyev Mərkəzində şəhər icra hakimiyyətinin rəsmiləri tərəfindən mehribanlıqla qarşılanıblar.

Məktəblilərin diqqətinə çatdırılıb ki, Şəki əsrlər boyu ipəkçilik ənənələrinin qorunub saxlandığı bir diyar olub. İpəkçilik bütün dövrlərdə şəkililərin həyatında, məişətində özünəməxsus yer tutub. Şəki bu gün də öz ipəkçilik məhsulları ilə dünyada məşhurdur. Bu şəhərdə fəaliyyət göstərən "Şəki-İpək" ASC şimal-qərb bölgəsinin ən böyük sənaye müəssisələrindən biri hesab olunur.

Tur-aksiya iştirakçılarının qədim Şəki ilə ilk tanışlığı "Yuxarı Baş" Dövlət Tarix-Memarlıq Qoruğunun ərazisindən başlanıb. Məlumat verilib ki, qoruğun ərazisində dövlət qeydiyyatına götürülən 25 tarixi abidə var.

XVIII əsrə aid nadir tarixi-memarlıq abidəsi - Şəki xanlarının sarayı ilə tanışlıq tur-aksiya iştirakçılarında böyük maraq oyadıb. Bildirilib ki, Azərbaycanda ilk müstəqil xanlığın əsasını qoyan Hacı Çələbi xanın nəvəsi, "Müştaq" təxəllüsü ilə şeirlər yazan Hüseyn xanın dövründə, 1761-1762-ci illərdə inşa edilən bu sarayın dünyada bənzəri yoxdur. Sarayın tikintisində mismar və yapışqandan istifadə olunmayıb.

Məktəblilər ilk dəfə gördükləri sarayın gözəlliyinə heyran qaldıqlarını bildirib, xatirə şəkilləri çəkdiriblər.

Tur-aksiya iştirakçıları sonra qoruğun ərazisində yerləşən V-VI əsrlərə aid memarlıq abidəsi Dairəvi Məbədlə tanış olublar.

Şəkinin tarixi məkanları ilə tanışlıqdan sonra tur-aksiya iştirakçıları Zaqatala rayonuna yola düşüblər.

* * *

"Ölkəmizi tanıyaq" tur-aksiyası çərçivəsində Kürdəmir rayonunun məktəblilərindən ibarət qrupun tərkibində respublikamızın şimal-qərb bölgəsinə ekskursiya edən Kürdəmir şəhər 1 nömrəli tam orta məktəbin 10-cu sinif şagirdi Məhəmməd İsmayılov səfərlə bağlı təəssüratlarını AZƏRTAC-ın müxbiri ilə bölüşüb.

Məktəbli deyib: "Maarifləndirici tur-aksiya bizə imkan verdi ki, ölkəmizin tarixi yerlərini gəzək, vətənimizi daha yaxından tanıyaq. Bu bölgədəki bir çox abidələr, muzeylərdəki qədim eksponatlar barədə yalnız tarix kitablarından oxuyub, televiziya ekranlarından izləmişdik. İndi isə bütün bunları canlı seyr etdik. Qəbələnin, Şəkinin tarixi irsi qorunmaqla yanaşı, müasirliyinə də ciddi fikir verilir. Bu şəhərlərdə yenilik, müasirlik, dəyişikliklər gördük. Həqiqətən də, bütün rayonlarımız çox sürətlə inkişaf edir. Şəkidəki Xan sarayına gəldikdə isə, demək istəyirəm ki, bu saray möhtəşəmliyi ilə bütün abidələrdən seçilir".

AZƏRTAC